Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Beynəlxalq Kuklaçı Günü

**Beynəlxalq Kuklaçı Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2020**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Beynəlxalq Kuklaçı Günü***:* Beynəlxalq Kuklaçı Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. -Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 35 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

Kuklalar səhnədə görünəndə həmişə bayram olur. Kukla tamaşaları uşaqlara xeyirxahlığı, yaxşıları dəyərləndirməyi və sevməyi öyrədir. Əgər kuklalar balacalar üçün bir oyun, əyləncədirsə, böyüklər üçün bir eyham, bir mesajdır. Çünki oyuncaqlar, bir tərəfdən körpə üçün əyləncəli anlar yaradar, digər tərəfdən də olduqca təsirli və tərbiyəvi vəzifəni boynuna götürür. Uşaqların romantik, ruhi, əqli və fiziki inkişafı baxımından ən təbii və ən aktiv öyrənmə zamanı oyuncaqlarla təmas əsnasında yaranır.

Bu gün oyuncaq istehsalı olduqca inkişaf edib, hər gün yeni bir oyuncaq dizayn edilərək bazara çıxarılır. Qız uşaqları daha çox gəlincik və ya miniatür ev əşyalarına üstünlük verir, oğlanlar isə daha çox konstrukturlar, silah, mexaniki, elektronik oyuncaqlarla maraqlanır. Dünya uşaq ədəbiyyatı uzun əsrlər boyu oyuncaq (ələlxüsus da, kukla) qəhrəman yaradılmasında maraqlı olub. Bu mövzuda dəyərli yazılar yazılması, uşaq aləmini dərk etmək üçün yazıçılardan fitri istedad, şifahi xalq yaradıcılığının janrlarını, canlı xalq danışıq dilini, onun ifadə imkanlarını bilməklə yanaşı, həm də uşaq aləmini, onun iç dünyasını duymağı, əsaslı öyrənmək tələb edilirdi. Çünki uşaqların maraq dairəsini, estetik zövqünü öyrənmədən onları konkret məqsədə doğru yönəltmək, fərdi meyillərini inkişaf etdirmək də olmazdı. Odur ki, uşaqlar üçün yazılan nağıllar, əsərlər onların yaş səviyyəsinə münasib olan üslubda qələmə alındı. Xalqımız ta qədimdən təbii vasitələrdən istifadə olunmaqla kuklalar düzəltmiş, xalq oyunları təşkil etmişdir. Beynəlxalq Kuklaçılar Gününün uşaq kitabxanalarında da qeyd olunması məqsədəuyğundur. Çünki bu bayram məhz uşaqlarla bağlıdır.

# Giriş

Beynəlxalq Kuklaçı Günü 21 mart – Beynəlxalq Kuklaçılar Günü (İnternational Day of Puppetry) kimi qeyd olunur. Bütün dünyada Beynəlxalq Kuklaçı Gününün qeyd olunması ideyası məşhur İran kukla teatrı xadimi Civad Zülfaqarihoya məxsusdur. 2000-ci ildə Maqdeburqda, Beynəlxalq Kukla Teatrı Xadimləri İttifaqının XVIII Konqresində o, bu məsələni müzakirəyə çıxarmışdır. Lakin bu bayramın keçirilməsinin yeri və vaxtı haqqında müzakirələr getsə də, məsələ həll olunmamış qalmışdır. Yalnız iki ildən sonra, UNİMA-nın Beynəlxalq Şurasının iclasında bayramın tarixi müəyyən olunmuşdur. Bütün dünyadan olan kuklaçıların bayramı ənənəsi 2000-ci ilin 21 martında yaranmışdır. Məhz həmin gündən başlayaraq kukla teatrının bütün peşəkarları və pərəstişkarları tərəfindən Beynəlxalq Kuklaçı Günü qeyd olunur.

Şərq mədəniyyətinin mütəfəkkirləri İbn əl – Əsr, A.Mokovelski, M.Kolankatvatsi, A. Xodzko, Biruni, S.Marrvə onlarca bu qəbildən alimlər Azərbaycan xalq oyun – tamaşalarından, teatr elementli mərasim şənliklərdən söhbət açanda kukla teatrı mənşəli və xarakterli səhnəciklərdən də bəhs ediblər.

Ənənəyə görə, həmin gün kukla teatrı və yaradıcı qruplarının əməkdaşları qeyri-adi kukla tamaşaları, maraqlı görüşlər, konsertlər təşkil edirlər. Ölkəmizdə də kuklaların, kukla tamaşalarının yaranmasının öz tarixi vardır. Kukla oyunlarını üç tipə bölmək olar: kilimarası; kukla oyunu; kölgə oyunu. Kukla oyun - tamaşalarının eyni kökdən olan bir neçə forması var. Bunlardan ən geniş yayılanı “Bəbək”, “Keçəl pəhləvan”, “Maral oyunu”, “Kilimarası” qədim kukla oyunlarındandır. İllər ötdükcə mədəniyyətin hər bir sahəsi kimi kukla teatrı da inkişaf edir. Min illər boyu azərbaycanlıların yaşadıqları geniş

ərazidə kukla oyunları da yayılıb. Bu oyunlar üçün kukla düzəldənlər oyuqçular adlanıblar.

Azəbaycn Dövlət kukla teatrı rəsmi oaraq, 1931 - ci il iyun ayının 16-da Azərbaycan SSR Xalq Təhsil Komissarlığının əmri ilə Fəhlə uşaqlarının teatrı nəzdində təşkil edilmişdir. Lakin bu janrın kökləri çox uzaqlara gedib çıxır.

Mollağa Nurulla oğlu Bəbirli dram teatrında çalışdığı illərdə Əyyub Rzayev və bir neçə başqa işçi ilə birlikdə səyyar tamaşalar vaxtı fasilələrdə özünün düzəltdiyi “əlcək” kuklalarla uşaqlara səhnəciklər göstərirdi. Onun kukla sənətinə olan məhəbbəti diqqətsiz qalmadı və o, ilk Dövlət Kukla teatrının direktoru- bədii rəhbəri təyin edildi.

1931-32 ci illərdə keçmiş SSRİ – nin bir çox şəhərlərində kukla teatrları təşkil edilirdi. Onların çoxu “mil” və “əlcək” kuklalardan istifadə edirdi. Kukla teatrında Azərbaycan və rus bölmələri fəaliyyət göstərirdilər. 1936 - cı ildə marionet kuklaları ilə “Hacı Qara” tamaşası hazırlandı.

Azərbaycanda körpə balaların kuklalarla əsas görüş ünvanı Abdulla Şaiq adına Kukla Teatrıdır. Kukla Teatrında həm milli, həm də dünya xalqlarının nağıl qəhrəmanlarının iştirakı ilə “Cırtdan”, “Turpun nağılı”, “Qoçaq Əhməd”, “Qırmızı Papaq”, “Cik-Cik xanım”, “Ələddin”, “Quşcuğaz”, “Göyçək Fatma”, “Məlikməmməd” və başqa tamaşalar nümayiş olunur. Beynəlxalq Kuklaçılar Gününün uşaq kitabxanalarında da qeyd olunması məqsədəuyğundur. Çünki bu bayram məhz uşaqlarla bağlıdır. Bu günlə əlaqədar sərgi təşkil edilməlidir. Sərgi aşağıdakı başlıq altında təşkil edilə bilər: “Mənim gəlinciyim”, “Nağılımın qəhrəmanı”, “Gəlin kuklalarla tanış olaq”, “Mənim ən yaxın dostum”, “Kuklalar aləminə səyahət”, “Nağıl dünyasına səyahət”, “Kuklamı özüm seçib, özüm düzəldirəm” “Ay uzunsaç, qaragöz, ağıllı kuklam mənim...” və s. Sərgidə milli və başqa kuklaları, əgər mümkün olmasa, onların

şəkillərini nümayiş etdirmək olar: Azərbaycan Dövlət Kukla Teatrının kuklaları









Beynəlxalq Kuklaçı Günü münasibətilə kitabxanalarda bu mövzuda qələmə alınmış kitabların sərgisinin təşkili vacibdir.Sərgini sizə təqdim edirik.




























1.96
Məyə


İLHAM RƏHİMLİ
AZƏRBAYCAN
TEATR TARİXİ
4


KUKLACI
PİNO
ARSLAN SAYMAN
Resimleyen: Gökçe İrten


ABDULLA
ŞAİQ
Seçilmiş əsərləri
III cild


Aleksey Tolstoy
Buratino
DÜNYA UŞAQ ƏDƏBİYYATI


А. Н. Толстой
Золотой
ключик,
или
Приключения
Буратино


BEBEK MI AYSU MU?
ELÇİN
Çeviren: Yücel Feyzioğlu


ELMER
və İTMİŞ
OYUNCAQ
AYI
Devid Makki


GÖYƏRÇİN







Sərgi zamanı Kukla və kuklaçılar haqqında deyimlərdən də istifadə etmək olar. Bir neçə belə nümunə təqdim edirik:

Kuklaçının səsi sadəcə insan səsi olmamalıdır, o, peyğəmbər səsi kimi dözməyə və qalib gəlməyə kömək etməlidir.

**Uilyam Folkner,**
*yazıçı*

İnsan kukladan nə ilə fərqlənir? Oyun bitdikdən sonra onu da, eynən kukla kimi qutusuna qoyurlar.

**Mina Fudzi,**
*aktrisa*

Tamaşa bitdikdən sonra kuklaçılar gedir, sınmış kuklaları isə tullayırlar.

**D.Solo,**
yazıçı, siyasətçi

Kitabxanalarda Beynəlxalq Kuklaçı Günü münasibətilə, bu mövzuda oxucuları məlumatlandırmaq məqsədilə **Ələsgərli Ç**. Xəzana dönmüş ömür və ya **kukla**çılığın nağılı. -

Bakı : Şərq-Qərb, 2016. - 160 s. : rəngli foto, foto. - (qalın cildli**) kitabının müzakirəsi**nin təşkili də məqsədəuyğundur.

**Konfrans:** Kitabxanalarda məktəblilərin iştirakı ilə **"Bizim sevimli kuklalarımız"** adlı **oxucu konfransı** da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, kuklaçıların, incəsənət adamlarının, kukla mövzusunda bir çox hekayə, nağıl, povest, şeirlər yazan uşaq yazarları şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur..

Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (**Beynəlxalq kuklaçı gününün tarixi**);
2. Bu mövzuda çıxışlar;
3. Məktəblilərin Kuklalardan bəhs edən hekayələr əsasında təqdim etdiyi səhnəciklər;
4. Konfransın yekunu.

**İcmal**

Uşaq kitabxanalarında Beynəlxalq Kuklaçı Günü münasibətilə kitabxananın fondu əsasında **biblioqrafik icmal**ların təşkili məqsədəuyğundur. Bunun üçün kitabxanaçı bu kitablar haqqında ətraflı məlumat əldə etməli, aydın şəkildə oxuculara bu məlumatı çatdırmalıdır.

**I kitab: Oleşa Y.** Üç gombul // Seçilmiş əsərləri. – Bakı : Avrasiya, 2006. – S.9-128.

Kitabxanaçı:1924- cü ildə Yuri Karloviç Oleşa uşaq və yeniyetmələr üçün məşhur **"Üç Gombul"** nağıl-povestini yazır. Əsər çap olunan kimi böyük oxucu marağına səbəb oldu. 1930 – cu ildə Oleşa "Üç Gombul"un səhnə versiyasını hazırladı. Bu pyes bir çox dillərə tərcümə olunaraq dünyanın bir sıra teatrlarının səhnəsində indi də oynanılmaqdadır.

**II kitab: Şmit A**. Kukla xəstələnib // Cip və Yanika : sevimli dostlar – Bakı : Qanun, 2018. – S.14-15. **“Cip və Yanika”** kitabında holland yazıçısı Anna Şmitin 1953-1960-cı illərdə uşaqlar üçün yazdığı əlliyə yaxın hekayə toplanıb. Ayrı-ayrı hekayələrdən ibarət olsa da, bu, vahid sujetli bütöv bir əsər təsiri bağışlayır. Əsərin əsas qəhrəmanları Cip adlı oğlan və Yanika adlı qızdır. Kitabda “Kukla xəstələnib” hekayəsi bizim bugünkü mövzumuzla bağlıdır.

**III kitab: Cabbarov E.** Ad günü. - Bakı : Altun Kitab, 2013. - 11 s. : rəngli şək. - (Mənim ilk kitabım : 5-6 yaş).

Elçin Cabbarovun 5-6 yaşlı uşaqlar üçün qələmə aldığı “Ad günü” nağılı da gəlinciklər haqqındadır. Nağılın qəhrəmanı Gülər atası ilə oyuncaq mağazasına gəldikdə rəfdə sarışın gəlincik görür və onu çox bəyənir. Gəlincik də bu duyğunu hiss edir. Atası Gülərə söz verir ki, Gəlinciyi ona alacaq. Amma oyuncağı mağazadan başqa bir qadın alıb aparır. Gülər üçün ad günündə dost, tanışlar çoxlu hədiyyələr gətirirlər. Ancaq Gülərin bütün fikri mağazada gördüyü gəlinciyin yanında qalır. Günün sonunda Gülər yatmağa hazırlaşarkən otaqdakı masanın üstündən tappıltı ilə yerə nəsə düşür. Gülər işığı yandıranda döşəmədə həmin gəlinciyi görür. Sən demə ucaboylu qadın − Gülərin xalası gəlinciyi onun ad gününə hədiyyə alıbmış.

**IV kitab:Tolstoy A. N.** Qızıl Açar, yaxud Buratinonun macəralari. - Bakı : ADPU-nun mətbəəsi, 2011. - 72 s.

İndi isə sizə Aleksey Tolstoyun “Qızıl açar, yaxud Buratinonun macəraları” kitabı haqqında danışmaq istərdim. Kitabı “Qızıl qələm” mükafatı laureatı Füzuli Əsgərli tərcümə etmişdir. Dünyanın bir çox yazıçılarının diqqətini cəlb etmiş oduncaq adam rəvayəti onlarla versiyalarda işlənmişdir. Tənha qoca oduncaqdan adam düzəldir və o, canlıya çevrilib insan ömrü yaşayır. Bu nağıl dinamikası, macəraları ilə diqqəti cəlb

edir. Tolstoy oduncaq övladı – Buratinoya həyatın ən sərt tərəflərini göstərir. O, atasına qızıl açar gətirmək üçün çox çətin sınaqlardan çıxır. Buratino onu odundan yaradan Karlo atasına sədaqətli qalır, ağıllı, tərbiyəli olmağa, məktəbdə oxumağa söz verir. Onun rastlaşdığı teatr aktyorları, müxtəlif xarakterli insanlar anladırlar ki, həyatda zəhmət, istedad, bir də ağıl insanın yaxın dostu olmalıdır. Böyüklərə hörmət, onların ağıllı məsləhətləri uşaqların yoluna işıq salır. Məhz bu cəhətləri ilə Buratino Karlo ataya xəzinə qapılarını açır və onun yeni bir teatr yaratmasına, istedadlı işsiz aktyorları ətrafına toplamağa imkan yaradır. Əsərin əsas süjetini Buratino və onun dostlarının Karabas Barabas, Duremar, tülkü Alisa və pişik Bazilio ilə mübarizəsi təşkil edir. Qızıl açarı ələ keçirmək üçün gərgin mübarizə gedir. Bu açar Karabas Barabas üçün var-dövlət, onun yoxsullar üzərində hakimiyyəti deməkdir. Buratino, Karlo ata, pudel Artemon, Pyero və Malvina üçün isə azadlıq rəmzidir. Əsər xeyrin şər üzərində qələbəsi ilə sona yetir. Qızıl açar axtarışında qeyri-adi macəralarla üzləşən Buratino və onun dostları barədə nağıl ilə hamı tanışdır. Nağılın sonunda onlar qızıl açarla sehrli qapını açır və arzuladıqları teatra qədəm qoyurlar. Qızıl açar axtarışında qeyri-adi macəralarla üzləşən Buratino və onun dostları barədə nağıl ilə hamı tanışdır. Nağılın sonunda onlar qızıl açarla sehrli qapını açır və arzuladıqları teatra qədəm qoyurlar.

**V kitab:**Zeynalova H. Sünbül kukla : nağıl // Göyərçin. - 2018. - № 12. - S. 8-9. Həbibə Zeynalovanın “Sünbül kukla” nağılı da balaca oxucularımız tərəfindən çox sevilir. Nağılın əsas qəhrəmanı İradə yaxşı yemir. Günü gündən arıqlayır. Valideynləri onu həkimə aparırlar. Həkim məsləhət görür ki, uşağa sarı buğda unundan bolluca qoğal yedirtsinlər. Bu xəbər İradənin qardaşı Qəhrəmana çatır. Qəhrəman Qazaxıstanda əl ayaq dəyməmiş xam torpaqlarda işləyir. O, yoldaşları ilə buğda becərir. Bir gün Qəhrəman bacısına qəribə bir kukla göndərir. Sünbül kukla. Kuklanın buruq-buruq saçları, uzun bığları,

yumru-yumru barmaqları olur. Axşam olanda İradə yatanda Sünbül kukla mətbəxə keçir, buruq-buruq saçlarındanbuğda çıxardıb şorba, o biri gün ətəyindəki sünbül qotazlardan buğda çıxarıb üyüdüb xəmir yoğurub, yağlı qoğal, halva, lavaş çörək bişirir. İradə bu gözəl yeməkləri yeyib kökəldi. Amma İradə kökəldikcə Sünbül kukla arıqlayır.

**VI kitab:**Rza R. Təranənin oyuncaqları. - Bakı : Renessans-A, 2017. - 16 s.

Rəsul Rzanın "Tərananin oyuncaqları". Rəsul Rza bu şeiri qızı Təranə üçün qələmə almışdır. Şeirdə Tərananin oyuncaqları ilə necə rəftar etdiyini, oyuncaqların bu rəftardan şikayətçi olduqlarını Xalq şairi Rəsul Rza böyük ustalıqla qələmə almışdır.

**VII kitab::**Nuruqızı S. Ağca və Cubbulu. - Bakı : Təhsil, 2009. - 12 s. : rəngli il. "Ağca və Cuppulu" hekayəsini sevilən uşaq yazıçısı Sevinc Nuruqızı qələmə almışdır. Hekayə müharibə bəlası ilə üzləşən bütün uşaqlara həsr olunub. "Ağca və cuppulu" müharibə gedən ərazidə yaşayan uşaqların həyatı haqqında təsirli hekayədir. Qeyd edək ki, "Ağca və Cuppulu" əsəri "Sürəyyanın yanına getdilər" adı ilə gələn il iki dildə - Koreya və Azərbaycan dillərində işıq üzü görəcək. Hekayədə Sürəyyanın atası cəbhə bölgəsində vuruşur. Bütün günü Sürəyyanın yanında qızın gəlinciyi Cuppulu və ağ göyərçin Ağca olurdu. Düşmən Sürəyyagilin kəndinə hücum edəndə, onlar kəndi tərk etməli olur. Bu təlaşda qızcığaz gəlinciyini itirir. Nağılın sonunda Ağca Cuppulunu tapıb dimdiyində Sürəyyaya gətirir.

**VIII kitab:**Elçin. Kukla, yoxsa Aysu. - Bakı : Azərbaycan, 1998. - 48 s.

Elçin Əfəndiyev "Kukla, yoxsa Aysu" kitabı da bugünkü mövzumuzla bağlıdır. Bu günlərdə Ankaranın məşhur "MEB" nəşriyyatı xalq yazıçısı Elçinin uşaqlar üçün yazdığı hekayələri

rəngli illüstrasiyalarla nəfis şəkildə çap edib. "Kukla, yoxsa Aysu?" ("Bebek mi, Aysumu?") adlı kitaba toplanmış hekayələri türk dilinə Avropada yaşayan görkəmli türk yazıçısı Yücel Feyzioğlu çevirib. Y.Feyzioğlu eyni zamanda kitaba ön söz yazıb. Onu da qeyd edək ki, "Kukla, yoxsa Aysu?" Elçinin Türkiyədə nəşr olunmuş sayca 18-ci kitabıdır. Kitabın içində "Humayın yuxusu" hekayəsi Humay ilə oyuncaqları arasında olan münasibətindən bəhs edir.

**IX kitab: Şaiq A.** Danışan kukla : pyes // seçilmiş əsərləri. 3 cilddə. – Bakı : Şərq-Qərb, 2013. – C.3. – S. 323-330. Abdulla Şaiqin "Danışan Kukla" pyesi bizim bugünkü mövzumuzla əlaqədardır. "Danışan kukla" pyesi uşaqlara məxsus iki pərdəli dram əsəridir. A.Şaiqin inqilabadək yazdığı uşaq əsərləri cərgəsində "Yeni köməkçi", "Çoban mahnısı", "Alma oğrusu", "Şələquyruq", "Murad", "Cümənin qəzəbi", "Danışan kukla" kimi müxtəlif formalı nümunələrə də rast gəlirik. Bu əsərlərdə müəllifi düşündürən başlıca məsələ uşaqların əxlaqı, təlim-tərbiyəsidir. Şıltaqlıq, dəcəllik, tənbəllik, tamahkarlıq, oğurluq kimi yaramaz hərəkətləri pisləyən, bunun konkret zərərli nəticələrini göstərən yazıçı uşaqlara mərdlik, namusluluq, çalışqanlıq, qayğıkeşlik, mehribançılıq, düzlük, əməksevərlik və b. nəcib sifətlər aşılayır, onları mənəvi-əxlaqi cəhətdən yüksəltmək, ləyaqətli və gərəkli adamlar kimi yetişdirmək məqsədi izləyir. Abdulla Şaiq "Danışan kukla" pyesində varlı təbəqənin ancaq özlərini düşündüklərini, kasıb camaatın yaşayışının onları maraqlandırmadığını, övladlarını daima kasıb uşaqlardan üstün tutduqlarını çox aydın şəkildə göstərmişdir. Pyesdə şahın qızı Rəmziyyə "Danışan kukla" istəyir. Onun ehtiyacını yerinə yetirmək üçün xidməçinin fikrinə qulaq asıb kasıb bir ailənin qızını ailəsinə azacıq yardım edib, kukla kimi şahzadəyə təqdim edirlər. Ehtiyac üzündən özünü kukla kimi təqdim olunmasına razı olan qızcığazın keçirdiyi narahatçılıq pyeslə tanış olan oxucunun ürəyini dağlayır. Pyesdə özünü kukla kimi təqdim edən İnci bu

vəziyyətdən sıxılıb, ağlayır. Şahzadə bunun səbəbini soruşduqda İnci bütün əhvalatı açıb ona danışır. Evləri üçün darıxdığını söyləyir. Pyesin sonunda şahzadə anasından xahiş edir ki, İnci ailəsi ilə birgə gəlib sarayda yaşasın. Şahzadə də onunla dostluq edib, vaxt keçirsin. Ancaq Şahzadənin valideynləri qətiyyən bu işə razılıq verməyib, kasıb ailənin övladı İncini evdən qovurlar.

**X kitab:**V.Korolenkonun **"Pis cəmiyyətdə"** adlı əsərində varlı ailənin uşaqları yeni tanış olduqları xəstə qızı sağaltmaq üçün vəfat etmiş analarının hədiyyəsini - buruq saçları çiyinlərinə tökülən kuklanı bir neçə günlüyə ona bağışlayırlar. "Bu bərbəzəkli saxsı kuklanın bizim xəstə dostumuza göstərdiyi təsir bizim düşündüyümüzdən də güclü olur. Solan payız çiçəyinə bənzəyən qızcığaz özünə gəlir. O, yeni, əsrarəngiz rəfiqəsini bağrına basıb, çiyinlərinə tökülən buruq saçlarını sığallayıb, heyranlıqla onun bəzəkli paltarına baxır, cingiltili səslə gülür... Bəli, bapbalaca kukla möcüzə yaradır: artıq günlərdir yorğan-döşəkdən qalxmayan xəstə qız gəzməyə başlayır, hətta zaman-zaman zəif ayaqlarını döşəməyə ehmalca basa-basa qaçır, hoppanır...".

**XI kitab**:V.Katayevin "**Yeddirəngli çiçək**" hekayəsindəki qız çoxlu oyuncaqlar arzulayır. (Həmyaşıdları arasında özünü təsdiq etmək istəyən Jenya "Dünyanın bütün oyuncaqlarını istəyirəm", - deməsiylə yerdən-göydən oyuncaq ələnməyə başlayır. Şəhər oyuncaq selinin altında qalır. Gəlinciklər, təyyarələr, atlar, ayılar, toplar, şarlar, ipatdılar, hacıyatmazlar, daha nə bilim nələr, nələr... Həyəcanlı Jenya milyonlarla oyuncaqdan canını qutarmaq istəyərkən, sehrli yeddirəngli çiçəyinin bir ləçəyini salıb itirir). Bu əsərlərdə oyuncaq öz sahibinin psixoloji portretini tamamlayır. Onun sevgisinə sığınır. Onun nifrətini əritməyə çalışır. Onun əvəzindən təhlükəyə atılır, bəzən xilaskar, bəzən yolgöstərən, bəzən xarakterlərin açılmasına bilavasitə təsir edən biri olur.

Beynəlxalq Kuklaçılar Günü münasibətilə uşaq kitabxanalarında kiçik yaşlı oxucular arasında **səhnəciklərin, səhərciklərin** təşkili məqsədəuyğundur. Nümunə üçün sizə çox sevilən mərhum kuklaçımız Ruslan Həsənovun qələmə aldığı "**Ağca və sarıca və ya dostluğun qüdrəti" adlı** əsl dostlara və dostluğa ithaf olunan tamaşanın ssenarisini təqdim edirik. İştirakçılar:

Ağca – cücə
Xoruz - Ağcanın babası
Sarıca – tülkü balası
Tülkü – Sarıcanın babası
Müqəvva (Həmdə) Albalı ağacı

**Aparıcı:** Tülkünün yuvasının bir tərəfində süd bidonu, quş lələkləri, bir tərəfdə isə nağara atılıb. Sarıca süd bidonunun içinə girib süd içir. Tülkü gəlir.

**Tülkü:** Sarıcam, nəvəciyim gizləndiyin yerdən çıx görüm!

**Sarıca:** Burdayam baba!

**Tülkü:** Artıq böyümüsən, ova çıxmalısan.

**Sarıca:** Ova? Nə ovuna?

**Tülkü:** Ya dovşan, ya da cücə ovuna.

**Sarıca:** Yox mənə nə dovşan nə də cücə istəmirəm. Mən süd istəyirəm.

**Tülkü:** Ay yazıq sən onların əlinə keçsən bilirsən səni nə günə qoyarlar? Balaca yadında saxla sən aldatmasan, səni aldadarlar.

**Sarıca:** Babacan, bu dediyin cücə nədir axı?

**Tülkü:** Cücə, sarı yumağa oxşar iki ayaqlı, balaca qanadlıdır. Görən kimi lap ağzın sulanır. Əvvəl gərək xoruzu aldadasan. İndi sənə mən bir neçə fənd öyrədəcəyəm.

Tülkü olmaq hünərdir,
Mahir olmaq gərəkdir.
Hamıya badalaq gəl,
Kələkbazlıq sənətdir.
Cəldliklə üstünük biz,
Taledən küskünük biz.
Təbiətə bəzəyik,
Ağılda üstünük biz.
**Sarıca:** Baba mən cücə ovuna gedirəm.

**Aparıcı:** Tülkü balası tez yuvadan çıxıb qaçır.

**Tülkü:** Qaç, kəşfiyyat apar. Sonra fənd işlədib cücəni xoruz ilə birlikdə götürərik. Əla nahar olacaq.

*Səhnəyə ağca gəlir. Toyuq hininin bir tərəfinə buğda-arpa yığılıb. Ortada su qabı var.*

**Ağca:** Babamın gəlişi üçün şam yeməyini hazırladım.

**Xoruz:** Ağca! Hardasan, nəvəciyim? Al sənə soxulcan gətirmişəm. Görüm sən bununla nə edəcəksən.

**Ağca:** Əvvəlcə onu sorğu-suala tutacağam.

**Xoruz:** Eh ay bala, heç xoruz – toyuq da soxulcanla söhbət edər? Onları dimdikləyib yemək lazımdır. Balacan yadında saxla toyuq və xoruzların qənimi olan heyvan tülküdür. O, sarışındır, quyruğu şələ, dişləri itidir. Əlindən qurtarmaq çətindir. Eybi yox tülkü ovu mövsümünə az qalıb. İnsanlar onlara dərs verəcəklər.

**Ağca:** Babacan, yəni insanlar belə cəsurdurlar?

**Xoruz:** Bəli, insanlar cəsur və tədbirlidirlər.

*Xoruz yatır. Ağca moruq yığmağa gedir. Sarıca gəlir. O müqəvvanı görüb qorxur. Birdən ağcanı görür.*

**Sarıca:** Sənin adın nədir?

**Ağca:** Mən Ağcayam. Bəs sənin adın nədir?

**Sarıca:** Mənsə sarıcayam.

**Ağca:** Sən niyə belə əsirsən? O, müqəvvanı göstərib deyir: Yoxsa sən insanlardan qorxursan?

**Müqəvva:** Sakit olun uşaqlar. Mən insan deyiləm, müqəvvayam. Tanıyanlar mənim varlığımı hiss etmirlər. Tanımayanlar isə qorxurlar. Qorxu yaratmaq üçün əynimə əsgi-üsgü geydiriblər. Bu cındırlar məni qızdırmır...

**Sarıca:** Ürəyimi sıxma, biz səni qızdırarıq. Sarıca sən onun ayaqlarını ört, mən də boynunu sarıyım.

**Müqəvva:** Çox sağ olun balacalar. Canım qızışdı. Amma bayaq siz çəkişəndə yaman üşüyürdüm. Yanımda nəcib, mülayim, ürəyi yumşaq olanda mən də yavaş-yavaş canlanıram. Gəlin sizə maraqlı oyun öyrədim. Bu oyunu sizin kimi balalar oynayır. Yerdəki işıldaquşları yığıb göyə tullayın, ulduz kimi yansınlar.

**Sarıca:** Olar moruqları yığıb göyə ataq?

*Hər ikisi moruqları toplayıb göyə tullayırlar, bütün səma moruq talasına dönür. Onlar birlikdə mahnı oxuyurlar.*

Göy üzü ulduzla dolsun,

Dostluğumuz möhkəm olsun.
Gülüş bizdən gen gəzməsin,
Moruq payı bizim olsun!
Ulduzlardan çələng düzək,
Moruqlardan səbət hörək.
Yarı sənin, yarı mənim,
Dostluğunsa qədrin bilək.

**Müqəvva:** Dünyada ən gözəl şey dostun olmasıdır. Deməli, arxan var, dövlətin var.

Mahnı deyin, rəqs edin,
Yorulmayın, qurumayın,
Müqəvvaya çevrilməyin.

**Sarıca:** Bizə rəqs etməyi öyrətməyiblər.

**Müqəvva:** Mən sizə öyrədərəm. Bu heç də çətin deyil.

*Müqəvva, Sarıca, Ağca oxuyub, rəqs edirlər.*

Qızılı Sarıca bala,
Pambıq kimi Ağca bala,
Nə yaxşı ki, siz gəldiniz,
Uyuğun qəlbini isitdiniz.
Qəlbi təmiz balalarım,
Dostluqda lap möhkəm olun.
Küsüşməyin, dalaşmayın,
Həmişə bir yerdə olun.

**Sarıca:** Mənim babam da çoxlu mahnı bilir. "Cib-cib cücələrim, mənim qəşəng cücələrim" mahnısını hər gün özü üçün zümzümə edir.

**Ağca:** Sən bir işə bax. Elə mənim babam da bu mahnını çox sevir. Hər səhər məni bu mahnı ilə yuxudan oyadır.

**Sarıca:** Doğurdan? Bilirsən, Ağca, mənə elə gəlir ki, babalarımız eyni mahnı oxuyurlarsa, deməli, onlar dostdurlar. Mənim babamın gözləri çox mənalıdır. Yerişi bax belədir.

*Tülkünün yerişini göstərir, hər küncü pusur.*

**Ağca:** Mənim babam isə çox ciddidir. Bax, belə əda ilə gəzməyi var.

*Xoruzun yerişini göstərir.*

**Sarıca:** Onlar ayrı ayrı xasiyyətdədirlər. Bilirsən, Ağca gəl hər gün bir-birimizə qonaq gedək.

*Ağca sarıcagilə, sarıcada ağcagilə gedir. Babaların onlara münasibəti onları çaş – baş salır. Onlar qaçıb müqəvvanın yanına gəlirlər. Onların dostluğu Müqəvvaya çox gözəl təsir edir. Quru ağac çiçəklənib albalı ağacına dönür.*

Tədbirdə öncə sözləri Cahangir Məmmədovun, musiqisi Ağabacı Rzayevanın olan "Ay uzunsaç, qaragöz, ağıllı kuklam mənim" mahnısı uşaqların ifasında səsləndirilir.

Ay uzunsaç, qaragöz,
Ağıllı kuklam mənim!
Gəl "Əlifba" oxuyaq,
Sən şagird ol, mən müəllim.
Bir de görüm "A",
Ay gözəl kukla!
Yoxsa səninlə
Danışmaram ha...
Atam almış mənimçin,
Rəngli qələm və dəftər.
Kitabımda var budur
Gözəl-gözəl şəkillər.
Ağzını aç sən, Söylə can vətən!...

Nə tənbəl qızsan, Niyə dinmirsən?
Oxumağı, yazmağı,
Öyrənmişəm bacımdan.
Dərsə gedəndə mən “beş”
Alacağam hər zaman
Asan bir hərfi
Sən bilmirsən ki;
İncimə, kukla,
Alırsan “iki”...

Beynəlxalq Kuklaçı Günü münasibətilə kitabxanaların nağıl otaqlarında kuklalarımızdan bəhs edən nağılları oxuculara danışıb, **nağıl saatları** da təşkil etmək olar. Sizə nağıl saatında balaca oxucularınıza təqdim edəcək nağıldan nümunələr veririk.

Kitabxanaçı nağıl otağında oradakı personaj kuklalardan istifadə edərək nağılı danışır.

*Kitabxanaçı: Əziz uşaqlar bu gün sizə Astrid Lindqrenin “Mirabel” nağılını danışacağam.*

**Mirabel**: Mən indi sizə başıma gələn ən qeyri-adi hadisə haqqında danışacağam.



Bu, mənim altı yaşım olanda baş verib. Adım Britta-Kaysadır. Balaca bağçası olan bir evdə yaşayırıq. Heç bir qonşumuz yoxdur. Çünki yaşadığımız balaca ev sonunda şəhər olan uzun bir şose yolunun kənarında yerləşən yeganə yaşayış məskənidir. Atam bağbandır. O, bazarda tərəvəz və çiçək satır. Amma az pul qazanır. Həmişə nəyi isə almağa pulumuz çatmır. O zaman isə, yəni altı yaşım olanda, çox istəyirdim ki, mənə gəlincik alsınlar. İndi isə mən həyatımda baş verən sirli hadisəni danışa bilərəm. Bir dəfə baharda atamla anam bazara

çiçək aparmışdılar. Mən evdə tək qalmışdım. Şər vaxtı idi. Bağa getdim. Qəribə gecə idi. Birdən yolda at arabası göründü. Arabada qəribə balaca bir qoca var idi. Qaçıb həyət qapısını açdım. Araba həyətə girdi. Qoca mənə baxıb gülümsədi:
- Qapını açdığın üçün sənə pul verməliyəm. Amma pulum yoxdur. Əvəzində başqa şey verəcəyəm. Əlini uzat.
Qəribə balaca qoca ovcuma sarı dən qoydu. Dən qızıl kimi işıq saçırdı.
- Dəni bağınızda ək. Hər gün suyunu ver. Əyləncəli cücərti çıxacaq! - qoca dedi. O, qamçısını qaldırıb-endirdi. Bir saniyə sonra araba elə gözdən itdi ki, izi-tozu da qalmadı. Mən o saat dirriyə getdim və dəni əkdim. Hər gün dəni sulayıb həyəcanla onun cücərməsini gözləyirdim. Bir səhər yenə də susəpəni götürüb bağa qaçdım. Nə görsəm yaxşıdır? Dəni əkdiyim yerdə qıpqırmızı nə isə qabarmışdı. Günü-gündən bu qırmızı böyüyürdü. Və günlərin bir günü mən onun nə olduğunu başa düşdüm. Bu, qırmızı şlyapa idi. Şlyapa gəlinciyin başında idi. Bu gəlincik bizim dirrikdə bitmişdi!

İşə bax... Səhərlərin birində mənim dirriyimdə bütöv bir gəlincik başı bitmişdi. Gəlincik gün-gündən böyüyürdü. Artıq onun qırmızı paltarı da aydın nəzərə çarpırdı. Gəlincik dizlərinə qədər böyüyəndə mən atamla anamı dirriyə gətirdim ki, ona baxsınlar.

Onlar uzun müddət susdular. Nəhayət, atam dilləndi:
- Mən ömrümdə belə bir şey görməmişəm.
Bir bazar günü dirriyə gələndə gördüm ki, gəlincik daha çox böyüyüb. O, gözlərini açdı və düz üzümə baxdı. Mən onu astaca sığalladım. Birdən gəlincik kökündən qopub yerə düşdü. Başa düşdüm ki, gəlincik artıq yetişib. Mən onu qucağıma alıb evə qaçdım. Çox xoşbəxt idim. Gecə mən gəlinciyimə tikiş maşınının qapağında yer saldım və dedim:
- Gecən xeyrə qalsın, Marqareta!
Bilirsiniz, nə baş verdi? O, ağzını açdı və dedi:

- Adım Marqareta deyil. Haradan çıxdı Marqareta?! Adım Mirabeldir.

İşə bir bax! Gəlinciyim dayanmadan danışırdı. Deyirdi ki, ona əsl çarpayı və gecəköynəyi lazımdır, guya mən onun çox xoşuna gəlirəm, istəyir ki, anası olum.

- Anam ol, amma mənə sıyıq yedirtmə, - o, xəbərdarlıq etdi, - çünki sıyıq yeməkdən zəhləm gedir.

Hə, Mirabel belə Mirabeldi. Çox şən və qayğısız. Atamla anam otağa girəndə o, hərəkətsiz dayanır, onlar gedəndən sonra isə dəcəllik etməyə, cingiltili səslə danışıb-gülməyə başlayır. Artıq iki ildir Mirabel mənimlədir. Dünyada heç bir balaca qızın belə gəlinciyi yoxdur. O, blini sevir. Mən balaca oyuncaq tavada hər gün ona blini bişirib yedirdirəm. Hətta bir dəfə barmağımı da dişləyib. Atam ona çarpayı düzəldib. Anam döşəkağı və gecəköynəyi tikib. Mən isə ona çoxlu önlük və paltar tikmişəm. İstəyirsiniz, mənim ağıllı və gözəl gəlinciyim Mirabeli görəsiz? Onda uzun şose yolu ilə gəlin. Yolun kənarındakı yeganə ev bizimdir. Söz verirəm, Mirabeli qucağıma alıb sizi həyət qapısının önündə qarşılayacağam.

"Beynəlxalq Kuklaçı Günü" münasibətilə kitabxanalarda kuklalardan bəhs edən **filmlərin, cizgi filmlərinin oxucular üçün nümayişi** də məqsədəuyğundur. Hamımıza məlumdur ki, məktəbyaşlı uşaqların kitabxanaya cəlb edilməsi işində cizgi filmlərinin, animasiyaların nümayişinin müsbət rolu vardır. Çünki bu filmlər gerçəkliyi əks etdirmənin ən yaxşı vasitələrindən biri sayılır. Bu filmlərin təsiri ilə uşaqlar gülür, sevinir, ağlayırlar. Bu məqsədlə kitabxanada uşaqlar üçün rus yazıçısı Aleksey Tolstoyun Karlo Kollodinin "Pinokionun macəraları. Taxta kuklanın tarixçəsi" adlı nağılı əsasında qələmə aldığı "Qızıl açar və ya Buratinonun macəraları" povest-nağılı əsasında çəkilmiş filmin nümayişini sizə məsləhət görərdik. Bu mövzuda çəkilmiş başqa uşaq filmlərinin də nümayişi məqsədəuyğundur.

Beynəlxalq kuklaçı Günü münasibətilə uşaq kitabxanalarına Musiqili Komediya Teatrının Uşaq Studiyasını dəvət edib, onların ifasında Aleksey Nikolaeviç Tolstoyun qələmə aldığı “Qızıl açar, yaxud Buratinonun macəraları” **tamaşa**sını uşaqlara təqdim etmək məqsədəuyğundur. Rus dilindən təcümə Nicat Kazımova aiddir. Quruluşçu rejissor---Elməddin Dadaşov, Quruluşçu rəssam---Nabat Səmədova, Rəqslərin quruluşu--Elvira Şahmetova, şeirlərin təcüməsi---Zaur Səmədova aiddir. Maraqlı yozumu, rəngarəng geyimləri və dekorasiya həlli ilə yadda qalan tamaşa uşaqlar tərəfindən alqışlarla qarşılanacaqdır.

Uşaq kitabxanalarında Beynəlxalq Kuklaçı Günü münasibətilə balaca oxucularımız arasında **mahnı, rəsm yarışması** da təşkil etmək olar.

“Beynəlxalq Kuklaçı Günü” münasibətilə uşaq kitabxanalarında **ədəbi-bədii kompozisiyanın** təşkili oxucuların mövzuda çoxlu məlumatlar əldə etməsinə əlverişli şərait yaradar. **“Kuklalar aləminə səyahət**” adlı ədəbi - bədii kompozisiyanın ssenarisini sizə təqdim edirik.

**Aparıcı:** Biz bu gün buraya “Beynəlxalq Kuklaçı Günü” münasibətilə, uşaqlarımız arasında kuklalar, onların yaranma tarixi haqqında məlumat vermək üçün yığışmışıq.

**Aparıcı:** Bu məqsədlə uşaqlarımıza təbii məhsullardan istifadə edərək kuklalar, nağıl qəhrəmanlarını düzəltmək tapşırılıb. Çünki uşaqlarımız nağılları çox sevirlər. Həyatda hər şey nağıllarda olduğu kimi olsaydı, yaxşı olmazdımı? Biz böyüklər hərdən bir belə düşünürük. Halbuki, bu mümkünsüz bir işdir... Ancaq balalarımız nağıl qəhrəmanlarını çox sevir, onlara bənzəmək, onlar kimi qorxmaz, cəsur olmaq istəyir. Nağıl qəhrəmanları çox vaxt uşaqlarımızın xoşuna gəldiyi kimi bizim də xoşumuza gəlir... Elə bir uşaq tapılmaz ki, kuklaların iştirakı

ilə olan tamaşaları, səhnəcikləri və proqramları sevə-sevə izləməsin.

**Aparıcı:** Bu tamaşaları yaxşı dərk etmək, dünyagörüşünüzü zənginləşdirmək, kuklalarınızı yaxşı tanımaq istəyirsinizsə, kitabxanalara gələrək, bir - birindən mənalı nağıllarımızı oxuyun. Professor Aydın Talıbzadə nağıllarımız haqqında görün necə gözəl kəlamlar söyləyir:

"Uşaqlar dünyaya nağıllardan boylanar, nağıldan nağıla buğda boyda böyüyərlər. Onlar üçün nağıl aləmində heç bir şərtilik, heç bir uydurma, heç bir yalan-filan yoxdur: hər şey həqiqətdir, realdır; dəniz kimi realdır, dənizdə üzən gəmilər kimi realdır, torpaq kimi, torpaqda bitən ağaclar kimi realdır. Nağıllarda gerçəkliklə fantastika, fantastika ilə gerçəklik arasında cəmi iynəyarım yol var. Nağıllar xalqın uşaqlığıdır. Hər bir xalq öz nağıllarında güzgülənib özünü tanıyır. Nağıl xalqın mədəniyyətə vəsiqəsidir. Bu vəsiqəni hər bir insan hələ uşaq ikən öz anasından alır. Bir xalqı özün üçün "kəşf etmək" istəyirsənsə, onun adətlərini görmək, dilini öyrənmək istəyirsənsə, həmin xalqın nağıllarını oxu.

**Aparıcı:**Uşaqlar üçün yazılmış əsərlərin məzmun və formasına (yığcamlıq, lakoniklik, fikir aydınlığı, cümlələrin kompaktlığı, sintatik quruluşu, ana dilinin imkanlarından yetərincə yararlanma və s.) nəzər saldıqda yazıçılarımızın uşaqların psixologiyasını, onların yaşına uyğun davranışını bu sahənin mütəxəssisi kimi bildiyi qənaətinə gəlirik. Uşaqlar üçün yazdıqda, bir tərəfdən, uşaq ədəbiyyatının bölgüləri nəzərə alınmalıdırsa, digər tərəfdən, uşaq ədəbiyyatı nümunələri, eyni zamanda oxucuların yalnız yaşı ilə müəyyənləşmədiyini nəzərə almaq zəruridir. Yəni burada uşaqların yaşadığı ictimai mühit, onların inkişafı, idrakı, zövqü, nitq qabiliyyəti, mədəni davranış qaydalarına yiyələnməsi, bilik və maraq dairəsi də diqqət mərkəzində olmalıdır.

**Aparıcı:** Uşaqlarımızın mənəviyyatının formalaşdığı dövrdə müasir nağıllar, hekayələr yazılır. İndiki uşaqların düşüncəsi, həyata baxışı tamam başqa formada inkişaf edir, onların maraq dairələri tamamilə fərqlidir. Müasir yazarlar onların ruhunu tutub gözəl nümunələr yaratmağa çalışırlar. Bəli, ədəbiyyat inkişaf edirsə, nağıllarımız simvollarla zəngin olduğu üçün, uşaqlara, böyüklərə daha maraqlı görünə bilər.

Bu mövzuda yazılmış tamaşalar, nağıllar uşaqların mənəvi tərbiyəsində çox mühüm rol oynayır.

**Aparıcı:** Teatr, səhnə məkanında baş verən hadisə özlüyündə bir ecaz, möcüzə, sehrdir. Çünki ora dünyanın ən realist adamını belə bir neçə anlıq özündən qoparıb başqa aləmə aparan, ən sadə təsvirdə cansız əşyaları canlandırıb onların dilində sənətçilərin oyun yeridir. Teatr aktyorlarını, bu sənət məbədinin içində gedən proseslərin təşkilatçılarını sözün tam və yaxşı mənasında sehrbazlar, mükəmməl oyunbazlar adlandırmaq olar. Onlar yaratdıqları obrazların cizgilərin ən ahıl yaşlarınadək qoruyan səhnə fədailəridir.

Bu mənada qocaman sənət ocağı – Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı, onun mükəmməl və qədim binası, səhnəsindəki hər nəsildən olan peşəkar aktyor truppası dünəndən sabaha yaradıcılıq yolunda milli kukla teatr sənətimizin bələdçiləridir.

Bugünkü tədbirimizdə əsas məqsəd təbii məhsullarla hazırlanmış kuklalarla, oyuncaqlarla Azərbaycana, şəhərə bayram gətirmək idi, hamıya bayram ovqatı yaşatmaq, insanlara təbəssüm, xeyirxahlıqla, nəcibliklə aşılanmış əyləncə bəxş etmək, bütün şəhəri uşaqlıq dünyasına qaytarmaq, Bakını nağıllar aləminin sehrli zümrüd şəhərinə çevirməkdir. Çünki Oyuncaqlar, bir tərəfdən körpə üçün əyləncəli anlar yaradar, digər tərəfdən də olduqca təsirli və tərbiyəvi vəzifəni boynuna götürür.

**Aparıcı:** Bu gün Abdulla Şaiq adına kukla teatrı da bizim qonağımızdır. Bildiyimiz kimi Azərbaycanda uşaqların əyləncə yerləri, nağıl qəhrəmanları ilə görüş ünvanları elə də çox olmasa da, yox da deyil. Bunlardan biri də Abdulla Şaiq adına Kukla Teatrıdır ki, uşaqların marağını özünə cəlb edir. Kuklaların iştirakı ilə təqdim edilən tamaşalara balalarımız böyük həvəs və maraqla tamaşa edir.

**Aparıcı:**Teatr səhnəsində hərəkət edən, uşaqların gözləri qarşısında yeni aləm yaradan bu personajların hər biri öz - özlüyündə maraqlıdır. Onların hərəkətilə səsləndirmə arasında vəhdət o qədər təbii olur ki, qarşımızdakının sadəcə bir kukla olduğuna inanmağımız gəlmir. Amma həqiqət bundan ibarətdir ki, onlar kukla rəssamları tərəfindən deyil, bizim sevimli uşaqlarımız tərəfindən hazırlanıb. Gəlin bu gün bu tamaşalara əziz balalarımızın əməyi sayəsində təbii məhsullardan hazırlanmış kuklaların iştirakı ilə baxaq.

*Bu vaxt səhnədə Göyçək Fatma və Barbi kuklası görünür. Onlar öz aralarında mübahisə etməyə başlayırlar.*

**Barbi**:Fatma məni tanıdın? Mən bu dəqiqə ən dəbdə olan kuklayam. Məni bütün balaca xanımlar sevir. Mənim geyimim bütün uşaqların gözünü oxşayır. Məni bütün dünya tanıyır.

**Göyçək Fatma:** Gəl sən dəbdə olmağınla öyünmə. Uşaqlar hamısı məni də sevir, tanıyırlar. Mənim üstünlüyüm tariximin çox qədimlərə gedib çıxmasıdır. Gəl zalda əyləşən uşaqlardan soruşaq. Kimin nənəsi, anası mənim nağılımı öz körpəsinə oxumayıb. Mənim nağılım bütün dünyada məşhurdur. Kukla teatrında dəfələrlə bu nağıl tamaşaya qoyulub. Mən öz milliliyimlə, Azərbaycanımla, məni oxuyan azərbaycanlı körpələrlə fəxr edirəm.

***Aparıcı:.*** *Barbi etdiyi hərəkətdən peşman olub Göyçək Fatmadan üzr istəyir.*

**Barbi:** Bağışla məni Fatma. Sənin danışdıqlarından mən anladım ki, Azərbaycan xalq nağıllarının tarixi neçə min il əvvəllərə gedib çıxır. Mən bu danılmaz tarixin qarşısında baş əyirəm. Sənə söz verirəm ki, sənin haqqında məni əzizləyən bütün əcnəbi körpələrə məlumat verəcəyəm.

***Aparıcı:** Onlar qucaqlaşıb səhnədən ayrılırlar.*

**Aparıcı**:Uşaqlar gəlin bir düşünək. Kuklalar necə yaranıb? Hər bir nağıl, tamaşa qəhrəmanının kuklası səhnədə görünərkən ağlımızdan ilk keçənlərdən biri bu kuklaların necə yaranması, hazırlanması olur. Azərbaycanda Kukla Teatrı ənənələri çox qədimdir. Hələ meydan tamaşalarının geniş vüsət aldığı yüzilliklərdə kuklalardan da istifadə edilib. Bilirik ki, xalq tamaşaları və oyunlarının əsas personajları olan kosa, keçəl, keçi, bahar qız və başqa qəhrəmanların kuklaları da keçmiş zamanlarda mövcud olub.

**Aparıcı:** Sənətşünaslar qeyd edir ki, kuklalar ağac məmulatlarından hazırlanıb. Sonra kartondan və digər məmulatlardan kuklalar hazırlamağa başlayıblar. Bu gün Azərbaycan da daxil olmaqla, demək olar ki, dünyanın bütün ölkələrində kuklaların iştirakı ilə tamaşalar hazırlanır. Tamaşaların aparıcı qüvvəsi olan kuklaların necə hazırlanması çox maraqlıdır. Öyrəndik ki, kuklalar əvvəlcə plastilinlə hazırlanır, sonra isə gipsə köçürürlər. Bundan sonrakı mərhələdə isə kağız yapışqan məmulatlarından yüngül çəkili kuklalar hazırlanır. Kuklaların hansı formada hazırlanmalı olduğunu rəssama rejissor izah edir. Yəni kuklalar rejissorun seçiminə uyğun hazırlanır.

**Aparıcı:** Personajların kuklalarının hazırlanması prosesinə gəlin nəzər salaq: "Elə tamaşalar var ki, orada çox da əl-qol hərəkəti olmayan kuklalar lazım olur. Elə kuklalar var ki, əsasən gözləri oynamalıdır. Məsələn, "Dəli domrul" tamaşasında gözlər və ağızın hərəkət etməsinə ehtiyac yoxdur.

Burada əsas yük mətnin üzərindədir və qəhrəmanlar bir simvol, obraz kimi assosiasiya olunsalar, daha yaxşı olar. Kuklalardan əlavə, ənənəvi dekor olaraq şirmadan istifadə olunub. Rejissor öz fikrini, öz konsepsiyasını dəqiqləşdirəndən sonra rəssama işləmək daha asan olur. "Dəli domrul" ikipərdəli tamaşadır. Burada həm canlı plandır, həm də parker kuklaların iştirakıdır. Rapid kuklalar aşağıdan idarə olunan kuklalardır, parker kuklalarsa elədir ki, aktyorlar kuklaların əlini öz əlinə əlcək kimi geyinir və kuklaların arxasında gizlənir.

**Aparıcı:** Əgər kuklanı aktyor canlandıra, öz hisslərini ona ötürə bilməsə, bu, mahiyyətini itirir. Bunun özü şərtilikdir. Kukla Teatrında çox kompakt dekorasiyalar olmalıdır. Əgər kukla tamaşasında qəhrəman çox çevikdirsə, onun bir neçə nüsxəsini hazırlamaq lazımdır. Məsələn, bizdə Cırtdan gah səhnənin sağından, gah solundan görünür. Aktyora bu məsafəni fırlanıb keçmək uzun başa gəlir. Ona görə də bir neçə nüsxə kukla hazırlayırıq ki, gecikmə olmasın. Dekorasiyadan kuklalaradək bu şərtiliyi rəssam hansısa formada həll etməlidir. Bilirsiniz, tərbiyə məsələsində teatrın rolu hər şeydən çoxdur.

**Mənim kuklam** Tofiq Mütəllibov

Sevinirəm, gülürəm,
Tamam olmuş beş yaşım.
Gözəl bir kukla almış.
Mənə böyük qardaşım.
Kiçik əlüzyuyanı,
Qəşəng çarpayısı var.
Anam tikmiş kuklama,
Qırmızı rəngli paltar.
Mənim bəzəkli kuklam,
Çox ağıllı uşaqdır.
Ona lay-lay çalmıram,

Özü yatıb durandır.



**Aparıcı:** İnsan da həmişə özünü kənardan görməyə, sual verib cavab almağa çalışıb: Bu, insan üçün həmişə vacibdir. Kukla da belə yaranıb.

Kuklaların paltarları təkcə kuklaların ölçüsünə görə deyil, onların xarakterinə uyğun hazırlanmalıdır. Bu gün bizim hər bir növdə kuklamız var.

**Aparıcı:** Bəli, bu tədbirdən belə qənaətə gəlirik ki, Kukla teatrı qədim teatrlardan biri olmaqla yanaşı, həmçinin ən beynəlmiləl və demokratik incəsənət növüdür. Kukla canlı deyil, lakin aktyor onu əlinə alanda canlanır. İnsan maska taxanda artıq o özü deyil, bir başqasıdır. Anlaşılmazlığı dərk etmək, cansızı canlandırmaq insanı bütün varlığı boyunca düşündürən məsələdir. Bu deyilənlər kukla vasitəsilə reallaşdırılır. İndi Kukla Teatrına gələn balacalar öz qəhrəman kuklaları ilə məhz səhnədə görüşürlər. Bu gün Kukla teatrının tamaşaları Rusiya, Özbəkistan, Hindistan, Yəmən, Gürcüstan, İran, Türkiyə, Finlandiya, Türkmənistan tamaşaçılarına təqdim olunmuşdur. Son illər teatrın yaradıcı kollektivinə bir sıra istedadlı gənclər cəlb olunmuşdur. Onlar uşaqlara və böyüklərə müasir tamaşalar təqdim edirlər. Burada teatrın simvolu sayılan “Boy kuklaları” – “Bahar qız”, “Dədə Qorqud”, “Məşədi İbad”, “Tıq-Tıq xanım”, “Cırtdan” və başqa kuklaları görmək olar. Teatrın kollektivi müxtəlif illərdə Hindistan, Yəmən, İran, Türkiyə, Hollandiya, Moskva, Sankt-Peterburq, Türkmənistan, Gürcüstan, Arxangelsk, Krasnodar kimi ölkə və şəhərlərdə, eləcə də, Respublikamızda keçirilən beynəlxalq teatr festivallarında iştirak edib. Buranın ən sadiq tamaşaçıları uşaqlardır. Yarandığı gündən bu günəcən teatrda yüzlərlə tamaşa hazırlanıb. Xaricdən gətirilən kuklalar isə dövlət sifarişi üçün hazırlanan tamaşalar üçündür. Uşaqların maraqla izlədiyi

tamaşalarda iştirak edən kuklalar isə aktyorlar tərəfindən idarə edilir. İlk baxışdan insana sadə və adi gələn bu iş, əslində, çətin və zəhmət tələb edən sənətdir. Kuklalar sexdə hazırlandıqdan sonra aktyor ona baxır və üz cizgilərinə uyğun səsi müəyyən edir. 1964-ci il aprelin 15-də teatra "Dövlət" statusu verilib.

*Tədbirin sonunda Beynəlxalq Kuklaçı günü münasibətilə kitabxanalar oxucuları Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrına ekskursiyaya aparıb, bu mövzuda onlara ətraflı məlumat verə bilərlər.*

## Ədəbiyyat siyahısı

**Özhan M**. **Kukla** ve gölge tiyatrosu. - Bursa : Bursa büyükşehır belediyesi, 2010. - 104 s.

**Rəhimli İ.** Kukla teatrları : Azərbaycan Dövlət Kukla Teatrı : Gəncə Dövlət Kukla Teatrı : Naxçıvan Dövlət Kukla Teatrı : Qax Dövlət Kukla Teatrı : Salyan Dövlət Kukla Teatrı // Azərbaycan teatr tarixi : 5 cilddə. - Bakı : Şərq-Qərb, 2017. – C.4. – S. 379-434.

**Ələsgərli Ç**. Xəzana dönmüş ömür və ya kuklaçılığın nağılı. - Bakı : Şərq-Qərb, 2016. - 160 s. : rəngli foto, foto. - (qalın cildli)

***Bədii ədəbiyyat***

**Almaz G.** Ağlayan kukla // Göyərçin. - 2019. - № 10. - S. 14.

**Cabbarov E.** Ad günü. - Bakı : Altun Kitab, 2013. - 11 s. : rəngli şək. - (Mənim ilk kitabım : 5-6 yaş).

**Elçin**. Kukla, yoxsa Aysu. - Bakı : Azərbaycan, 1998. - 48 s.

**Makki D.** Elmer və itmiş oyuncaq ayı : hekayə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2014. - 32 s. : rəngli şək.

**Mütəllibov T.** Mənim kuklam : şeir // **Nəvə** : Azərbaycan və rus dillərində uşaq jurnalı. №1, 1996. - Bakı : Azərnəşr, 1996. - 17 s.

**Nəcəfzadə Q.** Kuklam böyüsün : şeir // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. – Bakı : Elm və təhsil, 2014. – S. 284.

**Nuruqızı S.** Ağca və Cubbulu. - Bakı : Təhsil, 2009. - 12 s. : rəngli il.

**Nuruqızı S.** Aysu və Ay. - Bakı : Təhsil, 2009. - 12 s.

**Oleşa Y.** Üç gombul // Seçilmiş əsərləri. – Bakı : Avrasiya, 2006. – S.9-128.

**Pərvanə S.** Oyuncaq it : şeir // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. – Bakı : Elm və təhsil, 2014. – S. 331.

**Rza R.** Təranənin oyuncaqları. - Bakı : Renessans-A, 2017. - 16 s.

**Şaiq A.** Danışan kukla : pyes // seçilmiş əsərləri. 3 cilddə. – Bakı : Şərq-Qərb, 2013. – C.3. – S. 323-330.

**Şmit A**. Kukla xəstələnib // Cip və Yanika : sevimli dostlar – Bakı : Qanun, 2018. – S.14-15.

**Tumurcuq. 6-cı kitab** : Oyuncaqlar adasında : 3-6 yaş. - Bakı : Şərq-Qərb, 2012. - 6 s. : rəngli. il. - (Tumurcuq).

**Zeynalova H.** Sünbül kukla : nağıl // Göyərçin. - 2018. - № 12. - S. 8-9.

***Elektron resurs***

**Zülfüqarov O**. Uşaq mahnıları 14 [Elektron resurs] / O. Zülfüqarov ; oxuyur Bənövşə xoru ; dirijor A. Cavanşirov. - 1 el. opt. disk (CD-DA).

***Dövri mətbuatda***

**Behbudqızı S.** Kukla paradı, yaxud nağılların gerçəkliyi // Mədəniyyət.az. - 2018. - **№ (317)**. - S. 48-51.

**Mirməmməd G.** Böyümək istəməyən oğlan Kukla teatrındadır // Mədəniyyət. - 2018. - 5 dekabr. - № 88. - S. 7.

**Mirməmməd G.** Sevimli nağıl yeni tərzdə, fərqli yozumda : Yaşından asılı olmayaraq, hər bir debüt həyacan gətirir A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının "Şəngülüm, Məngülüm" tamaşasında da bu həyacan az deyildi // Mədəniyyət. - 2018. - 6 aprel. - № 27. - S. 6.

**Nuruqızı S.** Salam, uşaq! Kuklalar... // Ədəbiyyat qəzeti. - 2019. - 13 aprel. - № 12. - S. 26.

**Pirimova N.** Onlar artıq bizim gücümüzü görüblər... : [A. Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının direktoru Rəşad Əhmədzadə ilə müsahibə] // Kaspi. - 2018. - 18 oktyabr. - № 175. - S. 12.

**Pirimova N.** Teatrlarımızın son 5 ili // Kaspi. - 2019. - 16 may. - № 88. - S. 11. - Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı.

**Röya X.** Bu sənət əynimə biçilib : kuklaçı Fərəh Əliyeva haqqında // Kaspi. - 2019. - 12 mart. - № 47. - S. 12.

***Mahnılar***

***Cavanşirov Ə.*** Oyun oyuncaqlarım : mahnı / Söz. Ənvər Çingizoğlu // youtub.com

**Mahnılar.** - Bakı : Altun Kitab, 2010. – S. 8. - (Mənim ilk kitabım : 5-6 yaş).

***Rzayeva A.*** *Kukla : mahnı / söz. C. Məmmədov // www.balalar-az.*

**Zülfüqarov O**. Qonaqlıq : mahnı / Söz X. Əlibəyli // www. Mk.musig-dunya.az

info@oxu.az, editor@oxu.az

# Beynəlxalq Kuklaçı Günü

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 10
Çapa imzalanmışdır: 13.03.2020
Tirajı:100
Pulsuz